Ədalət .- 2025.- 2 may(№16).- S.6.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Sızlar yada düşəndə...

... İnsan ömrünün ən gözəl günlərindən biri də tələbəlik illəridir. Bizim də tələbəlik dövrümüz 1974-79-cu illərə təsadüf edir. Və bu illərdə biz ömrümüzün ən gözəl günlərini yaşamışıq.

Tələbə yoldaşlarımın adını bir-bir çəksəm, uzun siyahı alınar. Onların əksəriyyəti tanınmış jurnalistlərdi. Və onların arasında Xalq yazıçısı, Əməkdar jurnalist, Əməkdar mədəniyyət işçisi, Əməkdar incəsənət xadimi, elmlər doktoru, professor var. Amma qoy bir neçəsinin adını və soyadını yada salım: Afaq Məsud, Flora Sadıqova, Rəhman Salmanlı, Loğman Rəşidzadə, Şamil Abdullayev, İbrahim Mehdiyev, Tofiq Yusifov, Elşad Həsənov, Zemfira Ələkbərova, Yeganə Rəhimova, Əməl Kərimova, Gövhər Rzayeva... Adlarını çəkmədiklərim məndən inciməsinlər. Bu yaxınlarda dostum və qardaşım Rəhman Salmanlı mənə zəng etdi ki, tələbə yoldaşımız Mehdi Alıyevin həyat yoldaşı rəhmətə gedib. Təbii ki, mən də Mehdi qardaşımıza telefon açdım və başsağlığı verdim.

Yəni dərdinə şərik oldum. Mehdi də bizim tələbə yoldaşlarımızın arasında ən tərbiyəli, ən mərifətli bir insandır. O dedi ki, Faiq, çox sağol ki, bu ağır gündə mənim dərdimə şərik olursan, minnətdaram! Sözün açığı, heç mənim "minnətdarlıq" sözündən xoşum gəlmir. Elə bil ki, birinə yaxşılıq eləyirsən, amma boynuna minnət qoyursan ki, sabah mənim elədiyim yaxşılığı qaytar! Nə isə... Mehdi dedi ki, tələbə yoldaşlarımızın çoxu zəng edib. Bunlar hamısı mənə təsəlli oldu. Sonra da fikrini davam etdirib dedi ki, bəs Şamil Abdullayev də açıq ürək əməliyyatı keçirib. Vaxtın olsa, bir ona zəng elə! Mən də vaxt itirmədən Şamil dostumuzla əlaqə yaratdım. Səsimi eşidən kimi sevindi və özünəməxsus bir şirinliklə hal-əhval tutdu. Və heç xəstəliyindən bir kəlmə də danışmadı, əksinə dedi ki, uşaqları mayda bir yerə yığarsan, sizə qonaqlıq verərəm. Mən Şamillə bir qrupda qəbul imtahanı vermişəm.

O qrupda Flora Sadıqova, Loğman Rəşidzadə də vardı. Şamil Azərbaycan dili və ədəbiyyat şifahi imtahandan "beş" aldı. Və bu "beşi" də imtahan komissiyasının sədri İsmayıl Şıxlı yazdı. Şamil Abdullayev qrupumuzda "əlaçı" tələbələrdən idi. Səhv eləmirəmsə, neçə bacının bir qardaşıdır. O, uzun müddət "Bakı-Baku" qəzetində məsul vəzifədə çalışıb və Şamil Qaraoğlu imzası ilə çıxış edib. Sonradan iş adamı kimi fəaliyyət göstərib və bu gün də həmin işlə məşğuldur. Bir dəfə də Şamil qardaşımız qəzetdə işləyəndə onun maşınında Şamaxının Ərəbşalbaş kəndinə tələbə dostumuz istedadlı jurnalist Qismət Babayevin toyuna getmişik. Onun maşınında Rəhman Salmanlı, mən, bir də adını unutduğum bir tələbə yoldaşımız vardı. Kəndə çatdıq, Qismətin qohumlarının hamısı bizi böyük sevgiylə qarşıladılar. Toyu da Alim Qasımov aparırdı. Hələ mən elə gözəl, yaddaqalan, muğamla zəngin toy görməmişdim.

Qismətin anasına həsr etdiyi şeir bizim hamımızı kövrəltdi... Hətta tələb dostumuz Məzahir Süleymanzadənin, Əlipənah müəllimin gözləri doldu. Yeməkdən əvvəl bizə Qismətin qohumlarıgildə kəklikotundan dəmlənmiş çay verdilər və o çayın dadı indiyə kimi damağımdan getməyib. Bax belə! Bizim Şamil qardaşımızla yol yoldaşlığımız olub və onun da öz gözəlliyi var!

Rəhmətə gedən tələbə dostlarımız da var: Əli Səfəroğlu, Ağalar Mirzə, Qismət Babayev, Mübariz, Vaqif, Mehman, Habil, Azər, Beydulla, Əhməd... Məkanları Cənnət olsun!!! Bax beləcə tələbəlik illərini xatırladım və çox kövrəldim. Sən demə, ən xoşbəxt günlərimiz həmin illər imiş. Amma bizim xəbərimiz yoxmuş... Yazımı da tələbəliklə bağlı məşhur şeirin bir bəndi ilə bitirirəm:

Sızlar yada düşəndə,
Ürəyimin telləri,
O mehriban, o əziz ,
Tələbəlik illəri...